# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# QƏRAR

**“Təbii inhisar subyektlərinin sahibkarlıq fəaliyyətinin nəticələrinə dair təqdim etdikləri maliyyə hesabatlarının forması və təqdim edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında**

“Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 yanvar tarixli 2451 nömrəli Fərmanının 2.5.10-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Təbii inhisar subyektlərinin sahibkarlıq fəaliyyətinin nəticələrinə dair təqdim etdikləri maliyyə hesabatlarının forması” təsdiq edilsin (əlavə olunur).

2. “Təbii inhisar subyektlərinin sahibkarlıq fəaliyyətinin nəticələrinə dair maliyyə hesabatlarının təqdim edilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

3. Bu Qərar 2024-cü il iyulun 1-dən tətbiq edilir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, “ 19 ” “ dekabr ” 2024-cü il

№ 529

Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2024-cü il
“ 19 ” dekabr tarixli
529 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Təbii inhisar subyektlərinin sahibkarlıq fəaliyyətinin nəticələrinə dair təqdim etdikləri maliyyə hesabatlarının**

**FORMASI**

Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin 39.7-ci maddəsində nəzərdə tutulan maliyyə hesabatları aşağıdakı komponentlərdən ibarətdir:

1. “Maliyyə vəziyyəti haqqında hesabat” (əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə);
2. “Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat” (əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə);
3. “Kapitalda dəyişikliklər haqqında hesabat” (əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə);
4. “Pul vəsaitlərinin hərəkəti haqqında hesabat (birbaşa və ya dolayı metod)” (əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə);
5. “Seçilmiş izahlı qeydlər”.

**Maliyyə vəziyyəti haqqında hesabat**

**manatla**

| **Bölmə/ maddə №-si** | **Bölmə/maddələrin adı** | **Hesabat dövrü üzrə** | **Əvvəlki dövr üzrə** | **İzahedici qeydlərin nömrəsi** |
|---|---|---|---|---|
| | **Cəmi aktivlər, o cümlədən** | | | |
| **1** | **Uzunmüddətli aktivlər** | | | |
| 10. | Qeyri-maddi aktivlər | | | |
| 11. | Torpaq, tikili və avadanlıqlar | | | |
| 12. | İnvestisiya mülkiyyəti | | | |
| 13. | Bioloji aktivlər | | | |
| 14. | Təbii sərvətlər | | | |
| 15. | İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | | |
| 16. | Təxirə salınmış vergi aktivləri | | | |
| 17. | Uzunmüddətli debitor borcları | | | |
| 18. | Sair uzunmüddətli maliyyə aktivləri | | | |
| 19. | Sair uzunmüddətli aktivlər | | | |

| | | | | |
|---|---|---|---|---|
| **2** | **Qısamüddətli aktivlər** | | | |
| 20. | Ehtiyatlar | | | |
| 21. | Qısamüddətli debitor borcları | | | |
| 22. | Pul vəsaitləri və onların ekvivalentləri | | | |
| 23. | Sair qısamüddətli maliyyə aktivləri | | | |
| 24. | Sair qısamüddətli aktivlər | | | |
| **3** | **Kapital** | | | |
| 30. | Ödənilmiş nominal (nizamnamə) kapital | | | |
| 31. | Emissiya gəliri | | | |
| 32. | Geri alınmış kapital (səhmlər) | | | |
| 33. | Kapital ehtiyatları | | | |
| 34. | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | | |
| | **Cəmi öhdəliklər, o cümlədən** | | | |
| **4** | **Uzunmüddətli öhdəliklər** | | | |
| 40. | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| 41. | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| 42. | Təxirə salınmış vergi öhdəlikləri | | | |
| 43. | Uzunmüddətli kreditor borcları | | | |
| 44. | Sair uzunmüddətli öhdəliklər | | | |
| **5** | **Qısamüddətli öhdəliklər** | | | |
| 50. | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| 51. | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| 52. | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | | | |
| 53. | Qısamüddətli kreditor borcları | | | |
| 54. | Sair qısamüddətli öhdəliklər | | | |
| | **Cəmi kapital və öhdəliklər** | | | |

*Təbii inhisar subyektinin rəhbəri*
*“___”_____________20____ il*

**Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat**
**(xərclərin xarakteri üzrə)**

**manatla**

| **Bölmə/ maddə və hesab №-si** | **Göstəricilərin adı** | **Hesabat dövrü üzrə** | **Əvvəlki dövr üzrə** | **İzahedici qeydlərin nömrəsi** |
|---|---|---|---|---|
| 60 | Əsas əməliyyat gəlirləri | | | |
| 61 və 73 | Sair əməliyyat gəlirləri | | | |
| | Bitməmiş istehsalat və hazır məhsul ehtiyatlarındakı artımlar (azalmalar) | | | |
| | Təşkilat tərəfindən yerinə yetirilmiş və kapitallaşdırılmış işlər | | | |
| | İstifadə edilmiş material ehtiyatları | | | |
| | İşçi heyəti üzrə xərclər | | | |
| | Amortizasiya xərcləri | | | |
| | Digər əməliyyat xərcləri | | | |
| 73 və 61 | Sair əməliyyat xərcləri | | | |
| **O cümlədən** | Xaricdən maliyyələşdirilən elmi tədqiqat işləri üzrə xərclər | | | |
| | Xaricdən maliyyələşdirilən elmi tədqiqat işləri üzrə xərclər istisna olmaqla sair əməliyyat xərcləri | | | |
| 62 və 74 | Fəaliyyətin dayandırılmasından yaranan mənfəətlər (zərərlər) | | | |
| | Əməliyyat mənfəəti (zərəri) | | | |
| 63 və 75 | Maliyyə mənfəəti (zərəri) | | | |
| 64 və 76 | Fövqəladə mənfəət (zərər) | | | |
| 81 | Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay | | | |
| | Vergiqoymadan əvvəl mənfəət (zərər) | | | |
| 90 | Mənfəət vergisi | | | |
| 341 | Hesabat dövründə xalis mənfəət (zərər) | | | |
| | O cümlədən | | | |

| | | | | |
|---|---|---|---|---|
| | qeyri-nəzarət payları üzrə xalis mənfəət (zərər) | | | |
| | əsas cəmiyyətin sahiblərinin mənfəəti (zərəri) | | | |
| | Digər məcmu gəlir | | | |
| | Məcmu gəlir (xalis mənfəətin (zərərin) və digər məcmu gəlirin cəmi) | | | |
| | O cümlədən | | | |
| | qeyri-nəzarət payları üzrə xalis mənfəət (zərər) | | | |
| | əsas cəmiyyətin sahiblərinin mənfəəti (zərəri) | | | |

*Təbii inhisar subyektinin rəhbəri*
*“___”_____________20____ il*

## Kapitalda dəyişikliklər haqqında hesabat

**manatla**

| | İzahedici qeydlərin nömrəsi | Ödənilmiş nizam-namə kapitalı | Emissiya gəliri | Geri alınmış kapital (səhmlər) | Kapital ehtiyatları | | | | | Bölüşdü-rülməmiş mənfəət (ödənil-məmiş zərər) | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | yenidən qiymətlən-dirilmə üzrə ehtiyat | məzənnə fərqləri üzrə ehtiyat | qanunve-ricilik üzrə ehtiyat | nizam-namə üzrə ehtiyat | digər ehtiyatlar | | |
| Əvvəlki hesabat dövrünün əvvəlinə olan qalıq | | | | | | | | | | | |
| Əvvəlki hesabat dövründə uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | | | | | | | | |
| **Səhvlərin düzəldilməsindən sonra əvvəlki hesabat dövrünün əvvəlinə qalıq** | | | | | | | | | | | |
| Əvvəlki hesabat dövründə xalis mənfəət (zərər) | | | | | | | | | | | |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | | | | | | | |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | | | | | | | | | |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | | | | | | | | |
| Kapitalın maddələri arasında köçürmələr | | | | | | | | | | | |
| Sair məcmu gəlir | | | | | | | | | | | |
| **Əvvəlki hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | | | | | | | | | | | |
| **Əvvəlki hesabat dövrünün sonuna qalıq** | | | | | | | | | | | |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | | | | | | | | | | |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | | | | | | | |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | | | | | | | | | |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | | | | | | | | |
| Kapitalın maddələri arasında köçürmələr | | | | | | | | | | | |
| Sair məcmu gəlir | | | | | | | | | | | |
| **Hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | | | | | | | | | | | |
| **Hesabat dövrünün sonuna qalıq** | | | | | | | | | | | |

*Təbii inhisar subyektinin rəhbəri* *“___”_____________20____ il*

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat**
**(birbaşa metod)**

**manatla**

| **Bölmə/maddələrin adı** | **Hesabat dövrü üzrə** | **Əvvəlki dövr üzrə** | **İzahedici qeydlərin nömrəsi** |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Malların satışından və xidmətlərin göstərilməsindən daxilolmalar | | | |
| Royaltilər, yığımlar və komisyon haqları üzrə daxilolmalar | | | |
| Digər gəlirlərdən daxilolmalar | | | |
| **Əməliyyat fəaliyyətindən cəmi daxilolmalar** | | | |
| Mallar və xidmətlərə görə xaricolmalar | | | |
| Əməyin ödənilməsi ilə əlaqədar ödənişlər | | | |
| Mənfəət vergisi ödənişi üzrə xaricolmalar | | | |
| Digər vergilərə görə xaricolmalar | | | |
| Əməliyyat fəaliyyətindən yaranan faiz ödənişləri üzrə xaricolmalar | | | |
| Digər ödənişlərə görə xaricolmalar | | | |
| **Əməliyyat fəaliyyətindən cəmi xaricolmalar** | | | |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri** | | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin satışından əldə olunan pul vəsaitlərinin daxilolmaları | | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | | | |
| Digər müəssisələrin pay və ya borc alətlərinin və birgə müəssisədə iştirak paylarının satılmasından yaranan pul vəsaitlərinin daxilolmaları (pul vəsaitlərinin ekvivalentləri kimi nəzərə alınan və sazişlərin | | | |

| | | | |
|---|---|---|---|
| bağlanılması və ya ticarət məqsədləri üçün nəzərdə tutulmuş alətlər üzrə pul vəsaitlərinin daxilolmaları istisna olmaqla) | | | |
| Digər müəssisələrin pay və ya borc alətlərinin və birgə müəssisədə iştirak paylarının əldə edilməsi üçün ödənilən pul vəsaitlərinin xaricolmaları (pul vəsaitlərinin ekvivalentləri kimi nəzərə alınan və sazişlərin bağlanılması və ya ticarət məqsədləri üçün nəzərdə tutulmuş alətlər üzrə pul vəsaitlərinin xaricolmaları istisna olmaqla) | | | |
| Digər tərəflərə verilmiş borcların qaytarılmasından pul vəsaitlərinin daxilolmaları | | | |
| Digər tərəflərə verilmiş borclara görə pul vəsaitlərinin xaricolmaları | | | |
| Fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin daxilolmaları | | | |
| Fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin ödənişləri | | | |
| İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | |
| Səhmlərin və digər kapital alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | | | |
| Müəssisənin öz səhmlərinin əldə edilməsi və ya yenidən alınması nəticəsində pul vəsaitlərinin xaricolmaları | | | |
| İstiqrazların, borc sənədlərinin, veksellərin, girov kağızlarının buraxılmasından və digər qısamüddətli və uzunmüddətli borcların alınmasına görə pul vəsaitlərinin daxilolmaları | | | |
| Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | | |

| | | | |
|---|---|---|---|
| Məqsədli maliyyələşdirmə şəklində pul vəsaitlərinin daxilolmaları | | | |
| Məqsədli maliyyələşdirmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | | |
| Maliyyə icarəsi müqavilələrinin şərtlərinə əsasən əsas məbləğlər üzrə pul vəsaitlərinin xaricolmaları | | | |
| Dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | | | |
| Faizlər şəklində pul vəsaitlərinin xaricolmaları | | | |
| Maliyyələşdirmə üzrə fəaliyyətlər ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | | |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | | | |
| **Pul vəsaitlərinin və onların ekvivalentlərinin hərəkəti** | | | |
| **Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği** | | | |
| İl ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | | | |
| Xarici valyutaların məzənnələrinin dəyişməsinin təsiri | | | |
| **Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı** | | | |

*Təbii inhisar subyektinin rəhbəri*

*“___”_____________20____ il*

## Pul vəsaitlərinin hərəkəti haqqında hesabat
## (dolayı metod)

**manatla**

| **Bölmə/maddələrin adı** | **Hesabat dövrü üzrə** | **Əvvəlki dövr üzrə** | **İzahedici qeydlərin nömrəsi** |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Hesabat dövründə xalis mənfəət və ya zərər | | | |
| Aşağıdakı maddələr üzrə düzəlişlər: | | | |
| azlıq təşkil edən mülkiyyətçilərin payı | | | |
| mənfəət vergisi üzrə xərclər | | | |
| amortizasiya xərcləri<br>investisiya fəaliyyəti ilə əlaqədar zərər (mənfəət) | | | |
| maliyyələşdirmə üzrə fəaliyyətə aid olan digər xərclər (gəlirlər) | | | |
| məzənnə fərqi üzrə xərclər (gəlirlər) | | | |
| faiz xərcləri (gəlirləri) | | | |
| şübhəli debitor borcları üzrə xərclər | | | |
| iddia müddəti ötmüş kreditor borclar üzrə gəlirlər | | | |
| sair qeyri-pul əməliyyatları üzrə xərclər (gəlirlər) | | | |
| **Dövriyyə kapitalındakı dəyişikliklərə qədər əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitləri** | | | |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər: | | | |
| ehtiyatların azalması (artması) | | | |
| əməliyyat debitor borclarının azalması (artması) | | | |
| sair qısamüddətli aktivlərin azalması (artması) | | | |
| vergi və sair məcburi ödənişlər üzrə öhdəliklərin artması (azalması) | | | |
| əməliyyat kreditor borclarının artması (azalması) | | | |
| sair qısamüddətli öhdəliklərin artması (azalması) | | | |
| ödənilmiş (qaytarılmış) mənfəət vergisi | | | |
| ödənilmiş faizlər | | | |

| | | | |
|---|---|---|---|
| Əməliyyat fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | | | |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri** | | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin satışından əldə olunan pul vəsaitlərinin daxilolmaları | | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | | | |
| Digər müəssisələrin pay və ya borc alətlərinin və birgə müəssisədə iştirak paylarının satılmasından yaranan pul vəsaitlərinin daxilolmaları (pul vəsaitlərinin ekvivalentləri kimi nəzərə alınan və sazişlərin bağlanılması və ya ticarət məqsədləri üçün nəzərdə tutulmuş alətlər üzrə pul vəsaitlərinin daxilolmaları istisna olmaqla) | | | |
| Digər müəssisələrin pay və ya borc alətlərinin və birgə müəssisədə iştirak paylarının əldə edilməsi üçün ödənilən pul vəsaitlərinin xaricolmaları (pul vəsaitlərinin ekvivalentləri kimi nəzərə alınan və sazişlərin bağlanılması və ya ticarət məqsədləri üçün nəzərdə tutulmuş alətlər üzrə pul vəsaitlərinin xaricolmaları istisna olmaqla) | | | |
| Digər tərəflərə verilmiş borcların qaytarılmasından pul vəsaitlərinin daxilolmaları | | | |
| Digər tərəflərə verilmiş borclara görə pul vəsaitlərinin xaricolmaları | | | |
| Fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin daxilolmaları | | | |
| Fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin ödənişləri | | | |

| | | | |
|---|---|---|---|
| İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | |
| Səhmlərin və digər kapital alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | | | |
| Müəssisənin öz səhmlərinin əldə edilməsi və ya yenidən alınması nəticəsində pul vəsaitlərinin xaricolmaları | | | |
| İstiqrazların, borc sənədlərinin, veksellərin, girov kağızlarının buraxılmasından və digər qısamüddətli və uzunmüddətli borcların alınmasına görə pul vəsaitlərinin daxilolmaları | | | |
| Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | | |
| Məqsədli maliyyələşdirmə şəklində pul vəsaitlərinin daxilolmaları | | | |
| Məqsədli maliyyələşdirmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | | |
| Maliyyə icarəsi müqavilələrinin şərtlərinə əsasən əsas məbləğlər üzrə pul vəsaitlərinin xaricolmaları | | | |
| Dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | | | |
| Faizlər şəklində pul vəsaitlərinin xaricolmaları | | | |
| Maliyyələşdirmə üzrə fəaliyyətlər ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | | |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | | | |
| **Pul vəsaitlərinin və onların ekvivalentlərinin hərəkəti** | | | |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların** | | | |

| | | | |
|---|---|---|---|
| **ekvivalentlərinin ilin əvvəlinə olan məbləği** | | | |
| İl ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | | | |
| Xarici valyutaların məzənnələrinin dəyişməsinin təsiri | | | |
| **Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı** | | | |

*Təbii inhisar subyektinin rəhbəri*
*“___”____________20____ il*

Təbii inhisar subyekti tərəfindən əlavə olaraq aşağıdakı hesabat təqdim edilməlidir:

**Hesabat dövrünün sonuna təqdim olunan hesabat**

**manatla**

| Sıra №-si | Göstəricilərin adı | İlin əvvəlinə | Hesabat dövrünün sonuna | İzahedici qeydlər |
|---|---|---|---|---|
| **1.** | **Cəmi aktivlər, o cümlədən** | | | |
| **2.** | **Uzunmüddətli aktivlər** | | | |
| 2.1. | əsas vəsaitlər (torpaq, tikili və avadanlıqlar, investisiya mülkiyyəti və sair) | | | |
| 2.2. | qeyri-maddi aktivlər | | | |
| 2.3. | uzunmüddətli debitor borclar | | | |
| 2.4. | sair uzunmüddətli aktivlər | | | |
| **3.** | **Qısamüddətli aktivlər** | | | |
| 3.1. | mal-material ehtiyatları | | | |
| 3.2. | pul vəsaitləri və onların ekvivalentləri | | | |
| 3.3. | qısamüddətli debitor borclar | | | |
| 3.4. | sair qısamüddətli aktivlər | | | |
| **4.** | **Kapital** | | | |
| 4.1. | nizamnamə kapitalı | | | |
| 4.2. | əlavə ödənilmiş kapital | | | |
| 4.3. | dövlət investisiyaları | | | |
| 4.4. | bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | | |
| **5.** | **Cəmi öhdəliklər, o cümlədən** | | | |
| **6.** | **Uzunmüddətli öhdəliklər** | | | |
| 6.1. | kredit və borc öhdəlikləri | | | |
| 6.2. | uzunmüddətli kreditor borclar | | | |
| 6.3. | sair uzunmüddətli öhdəliklər | | | |
| **7.** | **Qısamüddətli öhdəliklər** | | | |
| 7.1. | kredit və borc öhdəlikləri | | | |
| 7.2. | vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | | | |
| 7.3. | qısamüddətli kreditor borclar | | | |
| 7.4. | sair qısamüddətli öhdəliklər | | | |
| **8.** | **Cəmi kapital və öhdəliklər** | | | |

| | | | | |
|---|---|---|---|---|
| **9.** | **Gəlirlər (ƏDV ilə)** | | | |
| 9.1 | dövlət büdcəsindən ayrılan vəsaitlər və onların istifadə istiqamətləri | | | |
| 9.2. | təbii inhisar fəaliyyəti üzrə məhsulların satışından əldə edilmiş gəlir | | | |
| 9.3. | təbii inhisar fəaliyyətinə aid olmayan digər fəaliyyət üzrə məhsulların satışından əldə edilmiş gəlir | | | |
| **10.** | **Müştərilərə geri ödənilmiş vəsaitlər** | | | |
| 10.1. | müştərilərin müraciətlərinə əsasən geri ödənilmiş vəsaitlər | | | |
| 10.2. | məhkəmə qərarlarına əsasən geri ödənilmiş vəsaitlər | | | |
| 10.3. | sair səbəblərdən geri ödənilmiş vəsaitlər | | | |
| **11.** | **İnvestisiya layihələrinə ayrılan vəsaitlər** | | | |
| 11.1. | investisiya layihəsinin adı | | | |
| 11.2. | investisiya layihəsinin məqsədi | | | |
| 11.3. | investisiya layihəsinin icra edilməsinin proqnozlaşdırılan nəticəsi | | | |
| 11.4. | investisiya layihəsinin başlanma və istifadəyə verilməli olduğu tarix (ay, il) | | | |
| 11.5. | investisiya layihəsinin dəyəri (o cümlədən ehtimal olunan dəyəri) (manatla) | | | |
| 11.6. | investisiya layihəsinin icraçısı olduğu podratçı təşkilatın adı (belə hal olduqda) | | | |
| 11.7. | investisiya layihəsi ilə bağlı keçirilmiş satınalmaların növü (belə hal olduqda) | | | |
| 11.8. | hesabat dövrünə qədər ayrılmış vəsait (manatla) | | | |
| 11.9. | hesabat dövründə ayrılmış vəsait — sahibkarlıq fəaliyyəti hesabına | | | |

| | | | |
|---|---|---|---|
| | (o cümlədən cari hesabat ilinin sonunadək ayrılması nəzərdə tutulan vəsait) | dövlət büdcəsindən ayrılan vəsait | |
| | | digər mənbələr hesabına (mənbə göstərilmək şərtilə) | |
| 11.10. | hesabat dövrünə qədər yerinə yetirilmiş işin dəyəri (manatla) | | |
| 11.11. | investisiya layihəsi üzrə yerinə yetirilmiş işin həcmi (%-lə) | | |

*Təbii inhisar subyektinin rəhbəri*
*“___”____________20____ il*

Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2024-cü il
“ 19 ” dekabr tarixli
529 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Təbii inhisar subyektlərinin sahibkarlıq fəaliyyətinin nəticələrinə dair maliyyə hesabatlarının təqdim edilməsi**

**Q A Y D A S I**

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin (bundan sonra – Məcəllə) 39.7-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və təbii inhisar subyektlərinin sahibkarlıq fəaliyyətinin nəticələrinə dair maliyyə hesabatlarının təqdim edilməsi qaydasını müəyyən edir.

1.2. Təbii inhisar subyektləri maliyyə hesabatlarını (3 aylıq, 6 aylıq, 9 aylıq və illik) bu Qayda ilə müəyyən edilmiş formaya uyğun tərtib edirlər.

1.3. Bu Qaydada istifadə olunan anlayışlar Məcəllə və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən olunmuş mənaları ifadə edir.

## 2. Təbii inhisar subyektlərinin maliyyə hesabatlarının məzmunu

2.1. Təbii inhisar subyektlərinin sahibkarlıq fəaliyyətinin nəticələrinə dair təqdim etdikləri maliyyə hesabatlarına (rüblük əsasla, ötən ilin müvafiq dövrü ilə müqayisədə) aşağıdakılar daxil edilir:

2.1.1. “Maliyyə vəziyyəti haqqında hesabat”;

2.1.2. “Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat”;

2.1.3. “Kapitalda dəyişikliklər haqqında hesabat”;

2.1.4. “Pul vəsaitlərinin hərəkəti haqqında hesabat (birbaşa və ya dolayı metod)”;

2.1.5. “Seçilmiş izahlı qeydlər”.

2.2. Adıçəkilən maliyyə hesabatlarına əlavə olaraq təbii inhisar subyekti tərəfindən təqdim edilən “Hesabat dövrünün sonuna təqdim olunan hesabat”a aşağıdakılar daxil edilir:

2.2.1. uzunmüddətli aktivlər;

2.2.2. qısamüddətli aktivlər;

2.2.3. kapital;

2.2.4. uzunmüddətli öhdəliklər;

2.2.5. qısamüddətli öhdəliklər;

2.2.6. gəlirlər (ƏDV ilə);

2.2.7. müştərilərə geri ödənilmiş vəsaitlər;

2.2.8. investisiya layihələrinə ayrılan vəsaitlər.

2.3. Təbii inhisar subyektlərinin sahibkarlıq fəaliyyətinin nəticələrinə dair təqdim etdikləri maliyyə hesabatlarının qeydlərinə həmin hesabatlarda əks etdirilmiş hissələr üzrə hesabat dövründə baş vermiş dəyişiklikləri özündə əks etdirən ətraflı məlumatlar (hər bir əməliyyat üzrə məbləğləri ayrı-ayrılıqda göstərilməklə) daxil edilir.

## 3. Təbii inhisar subyektlərinin maliyyə hesabatlarının tərtibi qaydası

3.1. Təbii inhisar subyektləri sahibkarlıq fəaliyyətinin nəticələrinə dair təqdim etdikləri maliyyə hesabatlarını ("Maliyyə vəziyyəti haqqında hesabat", "Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat", "Kapitalda dəyişikliklər haqqında hesabat" və "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat") bu Qayda ilə müəyyən olunmuş formaya uyğun məlumatları özündə ehtiva edən göstəriciləri daxil etməklə tərtib etməlidirlər.

3.2. "Hesabat dövrünün sonuna təqdim olunan hesabat" aşağıda qeyd olunan formaya uyğun tərtib edilməlidir.

3.2.1. **"1. Cəmi aktivlər, o cümlədən":** Bu bənddə "2. Uzunmüddətli aktivlər" və "3. Qısamüddətli aktivlər" bəndlərinin cəmi əks etdirilir.

3.2.2. **"2. Uzunmüddətli aktivlər":**

3.2.2.1. "əsas vəsaitlər (torpaq, tikili və avadanlıqlar, investisiya mülkiyyəti və sair)" – əmlak (torpaq, tikili və avadanlıqlar, investisiya mülkiyyəti), xüsusi maşın texnikası, nəqliyyat vasitələri və digər əsas vəsaitlər əks etdirilir;

3.2.2.2. "qeyri-maddi aktivlər" – patentlər, lisenziyalar, nou-hau, proqram təminatı məhsulları, əmtəə nişanları və digər qeyri-maddi aktivlər əks etdirilir;

3.2.2.3. "uzunmüddətli debitor borclar" – müştərilərlə qarşılıqlı münasibətdə yaranan 12 aydan artıq olan debitor borclar əks etdirilir;

3.2.2.4. "sair uzunmüddətli aktivlər" – 3.2.2.1-3.2.2.3-cü yarımbəndlərə daxil olmayan aktivlər əks etdirilir.

3.2.3. **"3. Qısamüddətli aktivlər":**

3.2.3.1. "mal-material ehtiyatları" – xammal, yanacaq, ehtiyat hissələri, tikinti materialları və digər mal-material ehtiyatları əks etdirilir;

3.2.3.2. "pul vəsaitləri və onların ekvivalentləri" – kassada və bank hesablarında olan pul vəsaitləri, qiymətli kağızlar (səhmlər, istiqrazlar) və digər pul vəsaitləri (və onların ekvivalentləri) əks etdirilir;

3.2.3.3. "qısamüddətli debitor borclar" – müştərilərlə qarşılıqlı münasibətdə yaranan 12 aydan az olan debitor borclar əks etdirilir;

3.2.3.4. "sair qısamüddətli aktivlər" – 3.2.3.1-3.2.3.3-cü yarımbəndlərə daxil olmayan aktivlər əks etdirilir.

3.2.4. **"4. Kapital":**

3.2.4.1. "nizamnamə kapitalı" – payların (pul ifadəsində) məcmusunun dəyəri əks etdirilir;

3.2.4.2. "əlavə ödənilmiş kapital" – dövlətdən alınmış, lakin nizamnamə kapitalı kimi qeydiyyata alınmamış pul vəsaitləri əks etdirilir;

3.2.4.3. “dövlət investisiyaları” – qeyri-maliyyə aktivləri formasında investisiyalar, dövlət büdcəsindən maliyyələşdirilmiş investisiyalar, dövlət zəmanəti ilə beynəlxalq maliyyə təşkilatları tərəfindən maliyyələşdirilmiş investisiyalar və digər kapital əks etdirilir;

3.2.4.4. “bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)” – əldə edilmiş xalis mənfəətin (zərərin) (pul ifadəsində) məcmusunun dəyəri əks etdirilir.

3.2.5. **“5. Cəmi öhdəliklər, o cümlədən”:** Bu bənddə “6. Uzunmüddətli öhdəliklər” və “7. Qısamüddətli öhdəliklər” bəndlərinin cəmi əks etdirilir.

3.2.6. **“6. Uzunmüddətli öhdəliklər”:**

3.2.6.1. “kredit və borc öhdəlikləri” – dövlətdən alınmış borc vəsait, xarici kredit təşkilatlarına 12 aydan artıq olan borc öhdəliklər əks etdirilir;

3.2.6.2. “uzunmüddətli kreditor borclar” – istifadə edilmiş tikinti, ticarət, material, nəqliyyat, kommunal və digər xidmətlərə görə yaranan 12 aydan artıq olan borc öhdəliklər əks etdirilir;

3.2.6.3. “sair uzunmüddətli öhdəliklər” – 3.2.6.1-ci və 3.2.6.2-ci yarımbəndlərə daxil olmayan 12 aydan artıq olan borc öhdəlikləri əks etdirilir.

3.2.7. **“7. Qısamüddətli öhdəliklər”:**

3.2.7.1. “kredit və borc öhdəlikləri” – dövlətdən alınmış borc vəsait, xarici kredit təşkilatlarına 12 aydan az olan borc öhdəliklər əks etdirilir;

3.2.7.2. “vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər” – ƏDV, bəyan edilməmiş ƏDV, əmlak vergisi, mənbədən tutulan vergi, torpaq vergisi, gəlir vergisi, iqtisadi və maliyyə cərimələri və bu qəbildən olan digər 12 aydan az olan borc öhdəliklər əks etdirilir;

3.2.7.3. “qısamüddətli kreditor borclar” – istifadə edilmiş tikinti, ticarət, material, nəqliyyat, kommunal və digər xidmətlərə görə yaranan 12 aydan az olan borc öhdəliklər əks etdirilir;

3.2.7.4. “sair qısamüddətli öhdəliklər” – 3.2.7.1-3.2.7.3-cü yarımbəndlərə daxil olmayan 12 aydan az olan borc öhdəliklər əks etdirilir.

3.2.8. **“8. Cəmi kapital və öhdəliklər”:** Bu bənddə “4. Kapital” və “5. Cəmi öhdəliklər, o cümlədən” bəndlərinin cəmi əks etdirilir.

3.2.9. **“9. Gəlirlər (ƏDV ilə)”:**

3.2.9.1. “Dövlət büdcəsindən ayrılan vəsaitlər və onların istifadə istiqamətləri” – təbii inhisar subyektinə dövlət büdcəsindən ayrılan vəsaitlər və onların xərc istiqamətləri əks etdirilir;

3.2.9.2. “Təbii inhisar fəaliyyəti üzrə məhsulların satışından əldə edilmiş gəlir” – müştərilərlə qarşılıqlı münasibətdə Məcəllənin 36.1-ci maddəsi ilə müəyyən edilmiş fəaliyyət sahəsi üzrə məhsulun satışından əldə olunmuş pul vəsaiti əks etdirilir;

3.2.9.3. “Təbii inhisar fəaliyyətinə aid olmayan digər fəaliyyət üzrə məhsulların satışından əldə edilmiş gəlir” – müştərilərlə qarşılıqlı münasibətdə Məcəllənin 36.1-ci maddəsi ilə müəyyən edilməyən fəaliyyət sahəsi üzrə məhsulun satışından əldə olunmuş pul vəsaiti əks etdirilir.

3.2.10. **“10. Müştərilərə geri ödənilmiş vəsaitlər”:**

3.2.10.1. “Müştərilərin müraciətlərinə əsasən geri ödənilmiş vəsaitlər” – müştərilərlə qarşılıqlı münasibətdə məhsulun satışından əldə olunmuş pul vəsaitindən müştərilərin müraciətlərinə əsasən geri ödənilmiş pul vəsaiti əks etdirilir;

3.2.10.2. “Məhkəmə qərarlarına əsasən geri ödənilmiş vəsaitlər” – müştərilərlə qarşılıqlı münasibətdə məhsulun satışından əldə olunmuş pul vəsaitindən məhkəmə qərarlarına əsasən geri ödənilmiş pul vəsaiti əks etdirilir;

3.2.10.3. “Sair səbəblərdən geri ödənilmiş vəsaitlər” – müştərilərlə qarşılıqlı münasibətdə məhsulun satışından əldə olunmuş pul vəsaitindən sair səbəblərdən geri ödənilmiş pul vəsaiti əks etdirilir.

3.3. **“11. İnvestisiya layihələrinə ayrılan vəsaitlər”:**

3.3.1. Təbii inhisar subyekti tərəfindən hər bir investisiya layihəsi üzrə ayrı-ayrılıqda doldurulmaqla formaya (investisiya layihəsinin adı, məqsədi, icra edilməsinin proqnozlaşdırılan nəticəsi, başlanma və istifadəyə verilməli olduğu tarix, dəyəri (o cümlədən ehtimal olunan dəyəri), icraçısı olduğu podratçı təşkilatın adı və keçirilmiş satınalmaların növü (belə hal olduqda), habelə investisiya layihəsi üzrə hesabat dövrünə qədər ayrılmış vəsait, hesabat dövründə ayrılmış vəsait (o cümlədən cari hesabat ilinin sonunadək ayrılması nəzərdə tutulan vəsait), hesabat dövrünə qədər yerinə yetirilmiş işin dəyəri və həcmi) uyğun tərtib edilir.

3.4. Təbii inhisar subyektləri zəruri hesab etdikləri halda “Hesabat dövrünün sonuna təqdim olunan hesabat”ın 2-4-cü, 6-cı və 7-ci bəndləri üzrə müvafiq əlavələri daxil edə bilərlər.

3.5. “Hesabat dövrünün sonuna təqdim olunan hesabat”ın 11-ci bəndi hər investisiya layihəsi üzrə ayrı yarımbəndlərdə təqdim edilir.

3.6. Təbii inhisar subyektləri “Seçilmiş izahlı qeydlər”də sahibkarlıq fəaliyyətinin nəticələrinə dair təqdim etdikləri maliyyə hesabatları (“Maliyyə vəziyyəti haqqında hesabat”, “Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat”, “Kapitalda dəyişikliklər haqqında hesabat” və “Pul vəsaitlərinin hərəkəti haqqında hesabat”) üzrə məlumatların açıqlanmasını təqdim edir.

## 4. Təbii inhisar subyektlərinin maliyyə hesabatlarının təqdim edilməsi qaydası

Təbii inhisar subyektləri sahibkarlıq fəaliyyətinin nəticələrinə dair maliyyə hesabatlarını rəqabət orqanına rüb bitdikdən (hesabat tarixindən) sonrakı növbəti ayın 20-dək yazılı və ya elektron qaydada təqdim etməlidirlər.

## 5. Yekun müddəa

Təbii inhisar subyektlərinin sahibkarlıq fəaliyyətinin nəticələrinə dair maliyyə hesabatlarını müəyyən edilmiş qaydada və vaxtda təqdim etməmələri sübut olunduqda, rəqabət orqanı qanunvericiliyə uyğun olaraq tədbirlər görür.